# COĞRAFİYA

## AZƏRBAYCANIN ŞƏHƏR VƏ KƏNDLƏRİNİN İNTEQRASİYASININ COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

**V.Ə.ƏFƏNDİYEV, S.Q.NAĞIYEV**
***Bakı Dövlət Universiteti***
***v efendiyev@bsu.az***

*Şəhər və kəndin potensialının səmərəli təşkili istehsalat və sosial vəzifələrin həllində çox böyük rol oynayır. Şəhərlə kəndin inteqrasiyasının mahiyyəti şəhər və kənd əhalisinin əmək və yaşayış şəraitlərinin tədricən bərabərləşdirilməsindən ibarətdir. Bu, həm kənd, həm də şəhər əhalisinin şəhər (kənd əhalisi üçün) və kənd (şəhər əhalisi üçün) potensiallarından istifadə etmələrinə şərait yaradır. Kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsi və onun şəhər əhalisinin həyat şəraiti ilə yaxınlaşması maddi nemət və xidmətlərdən istifadədə, şəhər və kənd sakinlərinin tələbatlarının ödənilməsində daha çox nəzərə çarpır.*

Müasir dövrdə istehsalın ümumiləşdirilməsi sahələrarası səviyyəyə keçmiş və təsərrüfat kompleksləri, o cümlədən şəhər və kənd istehsal bölmələrini inteqrasiya edən ASK-lar formalaşmağa başlamışdır. Bütün bunlar təsərüfatın müxtəlif sahələrində, o cümlədən ASK-larda sıx qarşılıqlı əlaqələrin mövcud olduğu Azərbaycana da aiddir. Şəhərlərin, xüsusən də Bakının əhalisinin istehlak mallarına, yüngül və yeyinti sənayesi məhsullarına, həmçinin digər xammala tələbatını ödəmək üçün Bakı və digər şəhərlərin ətrafında aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi çox önəmlidir. Bu, ilk növbədə kənd təsərrüfatının inkişaf və formalaşma strukturunun təkmilləşdirilməsi üçün çox vacibdir. Kənd təsərrüfatı məhsularının istehsalı regionun iqtisadi-coğrafi inkişafı, məhsuldar qüvvələrin yerləşdirilməsi, əhalinin məskunlaşması və digər amillərlə sıx bağlıdır. Ərazinin təbii şəraitindən, iqtisadi-coğrafi inkişafından asılı olan, bu əlaqə təsərrüfat sahələrinin inkişaf səviyyəsinə və yerləşdirilməsinə böyük təsir göstərir. Bakı şəhərinin əhalisinin böyük hissəsi sənaye, nəqliyyat və xidmət sahələrində, digər hissəsi isə şəhərətrafı özəl (fermer) təsərrüfatlarda çalışır. Özəl təsərrüfatlarda çalışanların əsas hissəsi ət-süd istiqamətli, heyvandarlıq, istilikxana təsərrüfatı, gülçülüklə, tərəvəzçiliklə, efir yağları əldə etmək üçün bitkilərin becərilməsi ilə məşğuldurlar.

Bütövlükdə, intensiv mənimsənilmiş bölgədə istehsal münasibətlərindən asılı olmayaraq, əmək ehtiyatlarından səmərəli şəkildə yararlanmaqla aqrar sənayenin yüksək inkişafına nail olmaq mümkündür. Bu, şəhər əhalisinin sənaye məhsullarına tələbatının və bölgənin sosial-iqtisadi inkişafının təmin olunması üçün mühüm vasitədir.

İstehsalın təmərküzləşməsinin istehsal əlaqələrinin güclənməsinə əsaslanan yeni fomaları meydana çıxır ki, bunlar da təkcə şəhərdə deyil,

həmçinin kənd ərazilərində də sənaye istehsalının inkişaf etdirilməsi tələbatını genişləndirmişdir.

Azərbaycan yalnız şəhərlərdə deyil, bir çox rayonlarda da istehsalın təmərküzləşməsilə səciyyələnir. Nəticədə şəhər və kənd ərazilərinin istehsalatda inteqrasiyası baş verir. Şəhər müəssisələrinin bir çoxu kənd ərazisindəki müəssisələrlə sıx bağlıdır. Respublikada fəaliyyət göstərən 2426 müəssisədən 1424 müəssisə Abşeron iqtisadi rayonunda, qalan 1002 müəssisə isə digər iqtisadi rayonlarda yerləşir. Azərbaycan ərazisinin cəmi 3,9 faizini təşkil edən Abşeron iqtisadi rayonu ölkənin sənaye məhsulunun 80 faizini istehsal edir. Aran rayonu istisna olmaqla, digər rayonların payına ümumrespublika sənaye məhsulunun cəmi 14 faizi düşür.

Sosial infrastruktur, tədricən, şəhər və kənd sərhədlərini aşır, şəhərlə kəndin istehsal və sosial funksiyaları daha çox çulğalaşır. Azərbaycanda bu vəziyyət bazar iqtisadiyyatına keçidlə bağlı, xüsusilə nəzərə çarpmağa başlayıb. Bu ərzaq və digər məhsulların istehsalına, təbiətin mühafizəsinə dair tədbirlərin gerçəkləşdirilməsinə və əmək ehtiyatlarının formalaşmasına aiddir. Bir sözlə, şəhərlə kəndin müxtəlif sahələrdə inteqrasiyası genişlənir. Tamamilə aydındır ki, şəhər və kənd potensiallarının inteqrasiyası və «şəhər-kənd» sosial-iqtisadi sisteminin təşəkkülü uzun sürən, tədrici və mərhələli prosesdir.

Şəhərlə kənd arasında əlaqələr heç də dərhal dəyişmir, müxtəlif sahələr və bölgələrdə inteqrasiya proseslərinin intensivliyi fərqlənir. Lakin kəndin potensialından istifadənin istiqamət və formalarını müəyyənləşdirərkən şəhərlə kənd arasında istehsal və sosial-iqtisadi inteqrasiyanın başlaması faktını və onun əsas istiqamətlərinin güclənməsi üçün ilkin şərtlərin yaradılmasını nəzərə almamaq olmaz.

Aqrar-sənaye inteqrasiyasının və ASK təsərrüfatlarının formalaşmasının tərəqqisi, nəinki, şəhərlə kəndin əvvəllər müstəqil olan struktur bölmələrini birləşdirir, həm də ictimai əmək bölgüsünün şəhərdəki geniş çeşiddən fərqli olaraq, kənddə əməyin tətbiqi sahələrinin məhdudluğu ilə səciyyələnən mühüm bir cəhəti aradan qaldırır. Kəndin ehtiyat potensialından daha səmərəli və hərtərəfli istifadə edilməsi ilə əlaqədar bu xüsusilə önəmlidir. Əmək bölgüsünün bu xüsusiyyətinin dəyişdirilməsi kəndin sosial inkişafı baxımından da eyni dərəcədə əhəmiyyətlidir. Çünki əməyin tətbiqi sahələrinin məhdudluğu kənd əhalisinin həyat tərzini, sosial mühiti və ixtisaslaşma şəraitini əhəmiyyətli dərəcədə müəyyənləşdirir.

Aqrar-sənaye istehsalı ilə yanaşı, şəhər-kənd istehsalının yerli sənayedən başlamış, maşınqayırma, cihazqayırma və digər sənayelərə qədər öz struktur bölmələri olan müxtəlif sahələri də formalaşır. «Şəhər-kənd» sisteminin ümumi istehsal potensialını əhatə edən istehsalat sahələri tədricən genişlənir. Məsələn, Azərbaycanda Daşkəsən zonası dağmədən sənayesi, düzənlik Gəncə zonası isə Daşkəsən rayonunda çıxarılan alunit filizlərinin emalı üzrə ixtisaslaşmışdır. Burada alunitdən istifadənin genişləndirilməsi, giltorpağın əldə edilməsi və Sumqayıt müəssisələrində alüminium metalının istehsalı nəzərdə tutulur.

Tamamilə aydındır ki, kənddə struktur dəyişiklikləri, xüsusilə də, şəhər və kənd istehsal müəssisələrinin inteqrasiyası mürəkkəb prosesdir və onu kənd təsərrüfatının inkişaf maraqları, maddi və torpaq ehtiyatlarından daha səmərəli istifadə ilə əlaqələndirmək heç də həmişə asan olmur. Lakin kənddə istehsal sahələrinin tərkibinin genişlənməsi ənənəsi, istehsal sahəsində şəhərlə kənd arasında inteqrasiya prosesləri şəhərlə kəndin potensialından daha səmərəli istifadənin obyektiv və ən mühüm şərtidir.

İstehsal sahəsində inteqrasiya proseslərinin inkişafı kənd-şəhər infrastrukturunun formalaşması ilə çulğalaşır. «Şəhər-kənd» sisteminin sosial infrastrukturunun təşəkkülünün imkanları və zəruriliyi kəndin

çoxfunksionallığının artması ilə güclənir.

Təcrübə göstərir ki, şəhərlə kənd arasında əhalinin həyat şəraitindəki sosial-iqtisadi fərqlərin aradan qaldırılması problemini şəhər və kəndin sosial infrastrukturlarının inteqrasiyası proseslərindən kənarda həll etmək mümkün deyil. Belə ki, son vaxtlara qədər şəhər və kənddə təhsil, səhiyyə, mədəniyyət və ictimai iaşə sahələri əhəmiyyətli dərəcədə özünəməxsus şəkildə inkişaf edirdi. Bu isə həmin sahəyə qoyulan yatırımların sosial səmərəsinin kifayət qədər olmamasına gətirib çıxaran səbəblərdən biridir. Məsələ ondadır ki, kənddə sosial infrastrukturun bu və ya digər elementlərinin artırılması, bəzi hallarda isə onların, hətta şəhər və kənd əhalisinə göstərilən sosial-mədəni və sosial-məişət xidmətlərinin ayrı-ayrı növlərinin yüksək səviyyəsinə çatdırılması və yaxud yaxınlaşdırılması, hələ heç də bu sahədə şəhərlə kənd arasındakı sosial-iqtisadi fərqlərin aradan qaldırılmasını təmin etmir. Şəhərin imkanları daha geniş olaraq qalır, xüsusilə də şəhər və kənddə ictimai iaşə xidmətləri sahələrinin fərdi inkişafından şəhər və kənd əhalisinə ümumi xidmət sistemlərinə keçilməsi zərurəti yaranır.

Azərbaycanda şəhərlərlə kəndlər arasındakı fərqlər təsərrüfat obyektləri arasında iqtisadi münasibətlərin pozulması ilə nəticələnir. Bu, bütün sahələrə, o cümlədən məişət təsərrüfatı sahəsinə də aiddir. Azərbaycanın bir çox rayonlarında sakinlər qaz və enerji təchizatının olmamasından əziyyət çəkirdilər. Hazırda Bakı və Abşeron yarımadası da daxil olmaqla, ölkənin əksər rayonları «mavi yanacaqla» təmin olunmuşdur.

Bundan başqa, ASK-nın müxtəlif sənaye sahələri ilə inteqrasiyasının inkişafı şəhərlə kəndin sosial infrastrukturunun inteqrasiyası üçün bir sıra əlverişli şərait də yaradır. Bu isə xidmət sahələri müəssisələrini əhalinin rahatlığı məqsədilə müxtəlif tipli yaşayış məntəqələri arasında qarşılıqlı əlaqələrin gücləndiyi və yol-nəqliyyat şəbəkəsinin formalaşdığı şəraitdə daha səmərəli yerləşdirməyə imkan verir.

Şəhərlə kəndin istehsal strukturlarının və infrastrukturunun birləşdirilməsi həm şəhər və kənd məskunlaşma sistemlərində inteqrasiya prosesləri, həm də «şəhər-kənd» sisteminin yerləşdirilmə potensialının formalaşdırılması üçün təməl yaradır. Yerləşdirilmənin xarakteri, məskunlaşdırma şəbəkəsi və məskənlərarası əlaqə, ilk növbədə, istehsalın inkişaf səviyyəsindən, strukturundan, təmərküzləşmə dərəcəsindən, xidmət sahəsinin inkişafından və formalarından, istehsal-təsərrüfat və sosial əlaqələr sistemindən asılıdır. Müəyyən dərəcədə, yerləşdirilmənin xarakteri istehsalın müxtəlif sahələrinin özünəməxsus texnoloji xüsusiyyətlərilə şərtlənir. Belə ki, geniş ərazilərdə əməyin təşkilini nəzərdə tutan kənd təsərrüfatı istehsalı, şübhəsiz ki, kənd məskunlaşmasına əsaslı təsir göstərir. Azərbaycanda, təxminən, 4243 kənd yaşayış məntəqəsi mövcuddur. Kənd yaşayış məntəqələrinə yalnız rəsmi şəhər və ya şəhər tipli qəsəbə statusuna malik olmayan bütün yaşayış məntəqələri, həmçinin əhalisinin böyük əksəriyyəti fəhlə və qulluqçu sayılmayan və kənd təsərrüfatı əməyilə məşğul olan yaşayış məntəqələri aiddir.

Lakin ümumi inkişaf səviyyəsi yüksəldikcə, yol-nəqliyyat infrastrukturu yarandıqca, məskənlərarası əlaqələr genişləndikcə, məskunlaşmaya sənaye sahələrinin təsiri amili azalacaq, ictimai əmək bölgüsünün və sosial-iqtisadi amillərin təsiri isə artacaqdır. Bu, şəhərlə kənd arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması baxımından son dərəcə çox mühümdür. Belə ki, kənd yaşayış məntəqələrinin həm özlərilə, həm də şəhərlərlə əvvəllər mövcud olmuş zəif əlaqələri kəndin sosial-iqtisadi muxtariyyatını, onun sosial mühitinin özünəməxsusluğunu konservasiya etmiş, xidmət sahəsinin inkişafını və insanların həyat şəraitinin yaxşılaşdırılmasını mürəkkəbləşdirmişdir.

Odur ki, kəndin istehsal və qeyri-istehsal strukturunda dəyişikliklər prosesində məskunlaşma sistemi də planlı şəkildə dəyişməlidir.

Kəndin iqtisadi-sosial münasibətlərinin inkişaf etdirilməsi, sosial infrastrukturda aqrar-sənaye kompleksində və bütün istehsal sahələrində, «şəhər-kənd» sisteminin struktur bölmələrinin və potensialının formalaşdırılması ona dəlalət edir ki, məskunlaşmanın təkmilləşdirilməsinin əsas yolu həm kəndlə kənd, həm də şəhərlə kənd arasındakı əlaqələrin genişləndirilməsini əhatə edən müxtəlif aspektlərin inkişaf etdirilməsindən keçir.

Məskunlaşma əlaqələrinin bu istiqamətlərdə inkişafı, əslində, o deməkdir ki, müxtəlif tipli şəhər və kənd məntəqələri ümumi məskunlaşma sisteminə daxil olur və bu mənada inteqrasiya edilir.

Məskunlaşma əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi üçün hər bir yaşayış məntəqəsinin istehsal maraqları nəzərə alınmaqla funksiyasının dəqiqləşdirilməsi, onun mövqeyi və bu əlaqələr sayəsində əhalinin ictimai iaşənin müxtəlif növlərindən istifadəsinin mümkünlüyü prinsipial əhəmiyyət kəsb edir.

Böyük intellektual, kadr və elmi potensiala malik Gəncə, ölkənin işgüzar dairələri üçün cəlbedici olmuşdur. Əvvəllər yalnız Bakıda fəaliyyət göstərən şirkətlər bölgələrə, xüsusən də Gəncəyə diqqət yetirməyə başlamışlar. Həmişə olduğu kimi, Gəncə bazarında birinci olaraq respublikanın aparıcı bankların filialları qərarlaşdı. Hazırda şəhərdə Bakının hüdudlarından kənarda ilk bank (filialı və ya şöbəsi yox) olan «Gəncə» Səhmdar Kommersiya Bankı fəaliyyət göstərir. Milli Bankın islahatlarını Gəncə bölgəsində həyata keçirən Gəncə Şəhər İdarəsi Göygöl, Goranboy, Samux, Daşkəsən rayonlarını və Naftalan şəhərini əhatə edir.

Bir sıra, xüsusən də kiçik yaşayış məntəqələri arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi zamanı onların icra etdikləri funksiyaların səmərəli bölüşdürülməsi və uzlaşdırılması məskunlaşma şəbəkəsinin və həyat fəaliyyətinin təkmilləşdirilməsini təmin edir.

Kənd məskunlaşmasının belə əsaslı dəyişməsi və onun şəhər məskunlaşması ilə inteqrasiyası konkret məskunlaşma formalarının işənib hazırlanmasına şərait yaradır. Nəticədə kəndin təcridolunması halları aradan qaldırılır, sosial-iqtisadi sərhədlər götürülür və şəhərlə kənd arasında inteqrasiya prosesləri genişlənir. Belə məskunlaşma formaları, ilk növbədə, müxtəlif səviyyəli ümumi məskunlaşma sistemlərini (rayondaxili, rayon, rayonlararası, regional) əmələ gətirir ki, bu da şəhər və kəndin yerinə yetirdikləri funksiyaların uzlaşdırılmasına, onlar arasında istehsal, əmək, sosial, mədəni və digər əlaqələr kompleksinin inkişaf etdirilməsinə şərait yaradır. Müvafiq səviyyəli məskunlaşma sistemi (məsələn, rayondaxili və ya rayonlararası) yaşayış məntəqələri arasında əlaqələrin yalnız bir hissəsini gerçəkləşdirir və daha geniş, çoxsahəli məskunlaşma sisteminin tərkib elementinə çevrilir. Bu səbəbdən müxtəlif səviyyəli məskunlaşma sistemləri ümumi kənd-şəhər məskunlaşma potensialının bir hissəsi hesab edilir.

Şəhər və kəndin kompleks inkişafının reallaşdırılması və onların müsbət cəhətlərinin istifadəsi üçün lazımi şərait yalnız məskunlaşma sisteminin bütün səviyyələrinin (məsələn, muxtar respublika, yaxud daha böyük bölgə hüdudlarında) qarşılıqlı əlaqəsi vasitəsilə yaradıla bilər. «Şəhər-kənd» məskunlaşma sisteminin əsas funksiyası da elə bundan ibarətdir.

Məskunlaşma sistemlərinin formalaşdırılması və müxtəlif yaşayış məntəqələrinin bura daxil edilməsinin ümumi meyarı təsadüfi və epizodik əlaqələrin sabit, davamlı və təkrarlanan əlaqələrə keçməsinə əsaslanır. Bu da müvafiq məntəqələrdə həyat fəaliyyətinin təşkili üçün daxili zərurətə çevrilir.

Həm şəhər, həm də kənd daxilində funksiyalarının, böyüklüyünün

və struкturunun müxtəlifliyinə görə bir-birindən fərqlənən məsкunlaşma sistemlərinin mövcudluğu, onlarda həyat şəraitinin və sosial mühitin кeyfiyyətinin bərabərləşdirilməsinə, məntəqələrarası əlaqələrin dərinləşdirilməsinə, hər bir yaşayış məntəqəsinin potensialının ümumi məsкunlaşma potensialının üzvi tərкib hissəsinə çevrilməsinə şərait yaradır.

## ƏDƏBİYYAT


1. Эфендиев В.А., Нагиев С.К. География населения. Баку: 2005, с. 375.
2. Нагиев С.К. Социально-экологическая интеграция городского социума Азербайджана // Труды ГО Азербайджана. т. 13, Баку: 2008, с. 432-437.
3. Нагиев С.К. Анализ трансформации системы расселения в Азербайджане. Известия НАНА. Отдел «Наука о Земле». Баку: 2007, с. 68-71.
4. Никифоров Л.В. Социально-экономический потенциал села. М.: 1990, с. 283.
5. Социальное развитие села: проблемы и тенденции (информационно-аналитический обзор) // Экономист. 2000, №2, с. 91-94.
6. Статистические сборники Госкомстата Азербайджана. 2007 года.


## ГЕОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ ИНТЕГРАЦИОННЫХ ПРОЦЕССОВ ГОРОДОВ И СЕЛ В АЗЕРБАЙДЖАНЕ


**В.А.ЭФЕНДИЕВ, С.К.НАГИЕВ**


### РЕЗЮМЕ


Рациональная организация потенциала города и села играет огромную роль в решении производственных и социальных задач. Интеграция города и села заключается в постепенном выравнивании условий труда и жизни городского и сельского населения. Она обеспечивает общий доступ как сельскому, так и городскому населению к использованию городских (для сельского населения) и сельских (для городского населения) потенциалов. Повышение уровня жизни сельского населения и его сближение с условиями жизни городского населения более заметно в использовании материальных благ и услуг и в удовлетворении потребностей городских и сельских жителей.


## THE GEOGRAPHİCAL POTENTİAL OF İNTEGRATİONAL PROCESSES OF URBAN AND RURAL İN AZERBAİJAN


**V.A.EFENDIYEV, S.K.NAGIEV**


### SUMMARY


The rational organization of potential of the city and the village plays a huge role in the decision of industrial and social tasks. The integration of city and village consists of gradual alignment of working conditions of labour and life of both urban and rural population. It provides general access for both rural and urban population to use urban (for the rural population) and rural (for the urban population) potentials. The development of living standards of the rural population and its approach with living conditions of the urban population is more appreciable in the use of the material boons and services and in satisfaction of requirements of the urban and rural inhabitants.